Kibertəhlükəsizlik kafedrasının assistenti:
**Hüseynova Əzimə Şahin qızı**

E-poçt: ezime.huseynova@aztu.edu.az

Əzimə Şahin qızı Hüseynova 25 oktyabr 1998-ci ildə anadan olub.
Bakalavriat təhsilini 2016-2020-ci illərdə Azərbaycan Texniki Universitetində "Kompüter mühəndisliyi" ixtisası üzrə SABAH qruplarında alıb.
Magistratura təhsilini 2020-2022-ci illərdə Azərbaycan Texniki Universitetində "İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi" ixtisasının "İnformasiya mühafizəsi və təhlükəsizliyi" ixtisaslaşması üzrə alıb, fərqlənmə diplomu ilə məzun olub və akademik nailiyyətlərinə görə fəxri fərmanla təltif edilib.
Magistr dissertasiya işi: *Kriptovalyutaların mühafizə texnologiyalarının tədqiqi*.

2022-ci ilin mart-may aylarında AzTU-nun təşkilatçılığı ilə Qazi Universitetində (Türkiyə, Ankara) "Tədqiqat və Təcrübə Proqramı"nda iştirak etmişdir.

2022-ci ilin sentyabrından AzTU Kibertəhlükəsizlik kafedrasında çalışır və aşağıdakı fənləri tədris edir:

- İnformasiya təhlükəsizliyinin əsasları
- Kibertəhlükəsizliyin əsasları
- Əməliyyat sistemləri
- Şəbəkələrin təhlükəsizliyi
- Zərərverici proqram təminatının analizi
- Blokçeyn texnologiyaları (Magistratura)

İTT fakültəsi üzrə Həmkarlar İttifaqı təşkilatçısıdır (2023-cü ildən). Həmin ildən həm də Fakültə Elmi şurasının üzvüdür.

**Elmi əsərlərinin siyahısı**

1. Abasova Ə.Ş., Məmmədov C.İ., **Kriptovalyutaların inkişafı və SWOT analizi ilə bazardakı yerinin tədqiq edilməsi** / Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş tələbə və gənc tədqiqatçıların "Gənclər və elmi innovasiyalar" mövzusunda Respublika elmi-texniki konfransının materialları, 4-5 may 2022-ci il, səh. 179-182.
2. Abasova Ə., Tağıyeva A., İmamverdiyev Y., **Blokçeynlərdə kriptoqrafiya: aktual istiqamətlərin analizi** / Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş tələbə və gənc tədqiqatçıların "Mütərəqqi texnologiyalar və innovasiyalar" mövzusunda VIII Respublika elmi-texniki konfransı, 25-26 may 2023, səh. 192-195.

**Onlayn konfranslarda çıxışlar**

1. Abasova Ə., **Sıfır bilik isbatı və blokçeynlər** / AzTU, MDU və Gazi Universitetinin birgə onlayn elmi-praktiki konfransı. Dekabr 2022.
2. Abasova Ə., **Enerji sektorunda ağıllı müqavilələrin tətbiqi imkanları** / AzTU, MDU və Gazi Universitetinin birgə onlayn elmi-praktiki konfransı. May 2023.
3. Abasova Ə., **Blokçeynlərdə rəqəmsal imza alqoritmlərinin analizi** / AzTU, MDU və Gazi Universitetinin birgə onlayn elmi-praktiki konfransı. Dekabr 2023.